# Özəlləşdirmənin yeni mərhələsi nə vəd edir?

## *Bu proses xarici investorların Azərbaycana marağını bir qədər də artıracaq*



Azərbaycanda geniş özəlləşdirmə proqramı hazırlanacaq. Artıq özəlləşdirilməsi nəzərdə tutulan bəzi müəssisələrin siyahısının hazırlanmasına da start verilib. Məlumatlara görə, özəlləşdiriləcək müəssisələr arasında "Azərbaycan Hava Yolları" (AZAL), "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azərsu" ASC, "Meliorasiya və Su Təsərrüfatı" ASC kimi iri xidmət müəssisələrinin də adları çəkilir. Bundan başqa, hazırda büdcədən maliyyələşən bəzi səhiyyə ocaqlarının da özəlləşdirməyə açıq elan ediləcəyi gözlənilir.

Xatırladaq ki, Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı yanvarın 18-də keçirilən müşavirədə dövlət başçısı geniş özəlləşdirmə proqramının hazırlanması barədə aidiyyəti qurumların rəhbərlərinə tapşırıq verib: "Azərbaycanda iqtisadi aktivliyi təmin etmək üçün ölkədə geniş özəlləşdirmə proqramı hazırlanmalıdır. Artıq bununla bağlı müvafiq göstərişlər verilib. Biz həm xarici, həm yerli investorları bu işə cəlb etməliyik. Hələ ki, Azərbaycanda bir çox özəlləşdirilməmiş müəssisələr var və onların fəaliyyəti dayanıbdır. Bəzi hallarda bu müəssisələr yarıdağılmış vəziyyətdədir, onların çox böyük torpaq sahələri var".

Dövlət başçısı bildirib ki, biznes mühitini yaxşılaşdırmaq və iqtisadi canlanmanı sürətləndirmək üçün mütləq geniş özəlləşdirmə proqramı həyata keçirilməlidir. Prezident İlham Əliyev yeni özəlləşdirmə proqramının tam şəffaf keçirilməsi və beynəlxalq ekspertlərin də prosesə cəlb olunması ilə bağlı tapşırıqlar verib: "Yerli və xarici investorlar üçün elə şərait yaratmalıyıq ki, onlar böyük maraqla, həvəslə vəsait qoysunlar. Nəzərə alsaq ki, Azərbaycanın uzunmüddətli uğurlu inkişafı heç bir investorda şübhə doğurmur, Azərbaycan iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf edəcək. Burada həm neft-qaz amili var, həm də Azərbaycanda qeyri-neft sektorunun inkişafı sürətlə gedir. Keçən il Azərbaycanda qeyri-neft sənayesi 8 faizdən çox artıb. Ona görə yenə də demək istəyirəm, elə şərait yaratmalıyıq ki, xarici və yerli investorlar bu özəlləşdirmə proqramında böyük maraqla iştirak etsinlər".

Daha bir mühüm məqam isə ondan ibarətdir ki, Prezident İlham Əliyev Azərbaycanda geniş özəlləşdirmə proqramının həyata keçiriləcəyini dünya iqtisadi böhranından çıxış yollarının müzakirə olunduğu mötəbər beynəlxalq tribunadan - Davos İqtisadi Forumunda da bəyan edib. Dövlət başçısı hətta xarici investorları da Azərbaycanda özəlləşdirmə prosesində iştirak etməyə çağırıb: "Yaxın vaxtda Azərbaycan hökuməti özəlləşdirməyə çıxarılacaq dövlət aktivlərinin siyahısı ilə bağlı müzakirələrə başlayacaq".

"RİA Novosti" Agentliyinin müxbirinin "Rusiya şirkətləri Azərbaycanın dövlət aktivlərinin özəlləşdirilməsində iştirak edə bilərmi" sualına Prezident İlham Əliyev belə cavab verib: "Rusiya Azərbaycanın yaxın dostudur. Əgər istəsələr, yalnız şad olarıq. Lakin hələ ki müraciət edən olmayıb".

Ekspertlər bildirirlər ki, hazırkı iqtisadi vəziyyətdə özəlləşdirmənin həyata keçirilməsi ölkəyə yeni investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. İqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, əslində ölkə başçısı səviyyəsində geniş özəlləşdirmə proqramının hazırlanmasına göstəriş verilməsinin də məqsədi iqtisadi fəallığın genişlənməsinə, xarici sərmayələrin cəlbinə marağın artmasına şərait yaratmaqdır. Onun sözlərinə görə, dövlət başçısının elan etdiyi geniş özəlləşdirmə proqramının birinci məqsədi ölkəyə investisiyanın cəlb edilməsi ilə bağlıdır: "Prezident xarici investorların özəlləşdirmə prosesinə cəlb edilməsinin əhəmiyyətindən danışdı. Xarici investorların özəlləşdirmə prosesində iştirakının artırılmasında əsas maraq investorların cəlb edilməsi yolu ilə ölkəyə valyuta axınına nail olmaqdır. Çünki doğrudan da indiki şəraitdə ölkəyə valyuta axınının olmasına böyük ehtiyac var. Valyuta axını isə birbaşa xarici investorların ölkəyə daxil olması ilə mümkündür".

Vüqar Bayramov bildirib ki, özəlləşdirmənin digər əsas məqsədi büdcəyə daxilolmaların artırılmasına nail olmaqdır. Onun sözlərinə görə, yeni özəlləşdirmə proqramının həyata keçirilməsi həm də xidmət sahələrində idarəetmənin çevikliyinin artmasına təkan verəcək. Xüsusilə tənzimlənən qiymətlər olan sektorlarda özəlləşdirmə prosesini həyata keçirməklə daha çevik və şəffaf idarəetmə sisteminin qurulması çox vacibdir. Bu baxımdan yeni özəlləşdirmə proqramı ölkə iqtisadiyyatının inkişafı üçün daha geniş perspektivlər vəd edir.

**Elxan Salahov,**
***"İki sahil"***